**Azərbaycan Respublikası adından**
**Azərbaycan Respublikası Ali Məhkəməsi**
**Mülki Kollegiyasının**

# Q Ə R A R I

**İş № 2(102)-4007/2016** **20 sentyabr 2016-cı il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası, hakimlər Xələfov İlqar Rəhim oğlu, Mirzəliyev Əsəd Abdulla oğlu və Kalbalıyev Aslan Kalbalı oğlundan ibarət tərkibdə, Cəbrayılova Sevinc Elton qızının katibliyi ilə,

Bakı Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 07.04.2016-cı il tarixli 2(103)-2736/2016 saylı qətnaməsindən cavabdeh "Azərbaycan Beynəlxalq Bankı" ASC tərəfindən verilmiş kassasiya şikayəti üzrə işə baxaraq

## MÜƏYYƏN ETDİ:

Bakı şəhəri Nəsimi rayon məhkəməsinin 18 yanvar 2016-cı il tarixli qətnaməsi ilə (hakim A.İ.Paşayev, iş 2(006)-256/2016) iddiaçı Yaqublu Orxan Kamal oğlunun cavabdeh "Azərbaycan Beynəlxalq Bankı" ASC-yə qarşı tutulmuş pul məbləğinin və əlavə faizin geri qaytarılması tələbinə dair iddiası qismən təmin edilərək cavabdeh "Azərbaycan Beynəlxalq Bankı" ASC-dən 1577 manat məbləğində pulun alınaraq Yaqublu Orxan Kamal oğluna qaytarılması qət edilmiş, qalan hissədə iddia təmin edilməmişdir.

Bakı Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 07 aprel 2016-cı il tarixli qətnaməsi ilə (hakimlər: X.B.Məhərrəmova, İ.Ş.Vəliyev və E.M.Həsənov) cavabdeh "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin apellyasiya şikayəti təmin edilməmiş, Bakı şəhəri Nəsimi rayon məhkəməsinin 18 yanvar 2016-cı il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

## İşin halları:

10 fevral 2015-ci il tarixdə "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Mərkəzi Filialı ilə Musayev Mübariz Nadir oğlu arasında kredit müqaviləsi bağlanmış və həmin müqaviləyə əsasən bank tərəfindən M.N.Musayevə illik istifadə dərəcəsi 22 faiz olmaqla 24 ay müddətində 6800 manat məbləğində kredit verilmişdir.

Kredit müqaviləsi üzrə borclunun öhdəliklərinin təminatı kimi 10 fevral 2015-ci il tarixdə bankla Yaqublu Orxan Kamal oğlu arasında zaminlik müqaviləsi bağlanmışdır.

25 iyun 2015-ci il tarixdə borclu M.N.Musayev vəfat etmişdir. Mərhumun vərəsələri ondan qalmış mirası qəbul etməkdən imtina etmişlər.

Kredit müqaviləsi üzrə zamin O.K.Yaqublunun əmək haqqından borc hesabına 10 avqust 2015-ci il tarixdən 18 dekabr 2015-ci il tarixədək bank tərəfindən cəmi 1577 manat tutulmuşdur.

2015-ci ilin oktyabr ayında Yaqublu Orxan Kamal oğlu iddia ərizəsi ilə məhkəməyə müraciət edərək Azərbaycan Respublikası Mülki Məcəlləsinin 472.1-ci maddəsinə əsasən zaminin kredit müqaviləsi üzrə məsuliyyətinin yalnız borclunun öz öhdəliyinin icra etməməsi zamanı yaranmasını, borclu M.N.Musayevin vəfat edənə qədər öhdəliyini lazımınca icra etməsini, belə olduqda onun bank qarşısında öhdəlik daşımamasını əsas göstərməklə

...rclunun ölümündən sonra alınmış pul məbləğinin faizlərlə birlikdə ona qaytarılmasına dair ...ətnamə qəbul edilməsini xahiş etmişdir.

İddia tələbi üzrə yuxarıda göstərilən məhkəmə qətnamələri qəbul edilmişdir.

**Kassasiya şikayətinin dəlilləri:**

İş üzrə cavabdeh "Azərbaycan Beynəlxalq Bankı" ASC Bakı Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının 07 aprel 2016-cı il tarixli qətnaməsindən verdiyi kassasiya şikayətində kredit müqaviləsi üzrə borclu M.Musayevin ölümündən sonra onun banka 4320.35 manat məbləğində əsas, 80.20 manat məbləğində faiz borcunun yaranmasını, borclunun ölümünün zaminin öhdəliyinin icrasından azad etməməsini əsas göstərməklə qətnamənin ləğv edilməsi və iddianın həmin hissədə təmin olunmamasına dair qərar qəbul edilməsini xahiş etmişdir.

Tərəflər işin baxılma vaxtı və yeri barədə qanunla müəyyən olunmuş qaydada məlumatlandırılmalarına baxmayaraq, məhkəmə kollegiyasının iclasına gəlməmiş, lakin kollegiya işə onların iştirakı olmadan baxmağı mümkün hesab etmişdir.

**Hüquqi məsələlər:**

Kollegiya sədrlik edənin məruzəsini dinləyib, kassasiya şikayətinin dəlillərini müzakirə edib, iş materiallarını araşdırdıqdan sonra hesab edir ki, kassasiya şikayəti təmin olunmamalı, qətnamə dəyişdirilmədən saxlanılmalıdır.

Azərbaycan Respublikası MPM-nin 416-cı maddəsinə görə kassasiya instansiyası məhkəməsi apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır.

İşin apellyasiya instansiyası məhkəməsi tərəfindən müəyyən olunmuş və mübahisə olunmayan hallarından görünür ki, borclu M.N.Musayev vəfat edənə qədər kredit müqaviləsi üzrə öhdəliklərini lazımınca icra etmiş və yalnız onun vəfatından sonra müqavilə üzrə borcun ödənilməsi dayandırılmışdır.

Borclunun ölümündən sonra isə müəyyən olunduğu kimi zamin O.K.Yaqublunun əmək haqqından borc hesabına 1577 manat tutulmuşdur.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 472-ci maddəsinə görə borclu zaminliklə təmin edilmiş öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, əgər bu Məcəllədə və ya zaminlik müqaviləsində zaminin subsidiar məsuliyyəti nəzərdə tutulmayıbsa, zamin və borclu kreditor qarşısında birgə məsuliyyət daşıyırlar (472.1.).

Əgər zaminlik müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, faizlərin, borc tutulması üzrə məhkəmə xərclərinin və borclunun öhdəliyi icra etməməsi və ya lazımınca icra etməməsi nəticəsində kreditora dəyən digər zərərin əvəzinin ödənilməsi də daxil olmaqla, zamin kreditor qarşısında borclu ilə eyni həcmdə məsuliyyət daşıyır(472.2.).

Qanunun göstərilən norması yalnız borclunun öz öhdəliyini icra etməməsi və ya lazımınca icra etməməsi nəticəsində kreditora dəyən zərərin əvəzinin ödənilməsi də daxil olmaqla zaminin kreditor qarşısında məsuliyyətini nəzərdə tutduğundan, apellyasiya instansiyası məhkəməsi borclu M.Musayev tərəfindən həmin hərəkətlərə yol verməsinin müəyyən olunmamasına əsaslanaraq iddia tələbinin qismən təmin olunmasının qanuni olması barədə nəticəyə gəlmişdir.

Kollegiya işin müəyyən olunmuş yuxarıda göstərilən hallarına və qanunun tələbinə əsaslanaraq apellyasiya instansiyası məhkəməsinin iş üzrə gəldiyi nəticə ilə razılaşır və hesab edir ki, qətnamə qanuni olmaqla kassasiya şikayətinin dəlilləri qətnamənin ləğv edilməsi üçün əsas ola bilməz.

Şərh olunanlara əsasən və Azərbaycan Respublikası MPM-nin 416-419-cu maddələrini rəhbər tutaraq kollegiya

## QƏRARA ALDI:

İş üzrə cavabdeh "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin kassasiya şikayəti təmin edilməsin.

Bakı Apellyasiya Məhkəməsi Mülki Kollegiyasının hazırkı iş üzrə olan 07 aprel 2016-cı il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.

**Sədrlik edən:**
**Hakimlər:**
**Əsli ilə düzdür**
**Ali Məhkəmənin hakimi** **İlqar Xələfov**